# Qəbələli fermerlər bu il 75 hektar sahədə tütün yetişdiriblər

Bu il Qəbələ rayonunun təsərrüfatlarında 75 hektar sahədə tütün əkilib. Qəbələli fermerlər cari mövsümdə 15 hektar "Virciniya" növlü ətirli, 24 hektar "Berley", 36 hektarda isə "İmmunium" və digər növ yerli tütün sortları yetişdiriblər. Hazırda təsərrüfatlarda tütün yığımı davam edir. Fermerlər bu günədək sahələrdən 293 ton yaşıl tütün kütləsi yığıblar.



Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib.

Mərkəzin Bitkiçilik şöbəsinin müdiri Elimdar Şərifov bildirib ki, uzun illər fasilədən sonra Qəbələdə artıq üçüncü ildir tütün əkilir. Tütün əsasən, rayonun Mamaylı, Ovcullu, Bayramkoxalı, Böyük Əmili və Ziring kəndlərində yetişdirilir. Cari mövsümdə tütünün əkilib becərilməsinə və yığımına 120 nəfərdən çox yerli sakin cəlb olunub. Ötən il rayonun fermerləri 70 hektar sahədən 100 tondan çox quru tütün əldə ediblər.

**AZƏRTAC**

# Milli musiqi günü qeyd olundu

Qədim tarixə malik olan Azərbaycanın musiqi aləmi zəngin bir xəzinədir. Bu xəzinəyə neçə- neçə milli sərvətimiz: qızıl səslər, insanın daxili aləmini mənən lərzəyə gətirən, çoşduran, sabaha inama səsləyən cəngilər, marşlar, ürəklərdə olan nisgilləri dindirib, qəlbin dərdlərinə layla çalan muğamlarımız rəngarənlik vermişdir. Milli musiqi deyəndə ilk olaraq Üzeyir Hacıbəyov yada düşür. Azərbaycanın 100 illik Dövlət Himninin bəstəkarı, ilk opera müəllifi Üzeyir Hacıbəyov milli musiqi xəzinəmizə böyük,əvəzedilməz tövhələr bəxş edib. Dahi bəstəkarın doğum günü 1885-ci il 18 sentyabr günü Milli musiqi tariximizin bayram təntənəsinə çevrilib.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində Milli musiqi günü ilə əlaqədar olaraq dəyirmi masa təşkil olunmuşdur. İlk olaraq Dövlət Himnimiz kollektiv şəkildə ifa olunmuşdur. Kütləvi tədbirlər şöbəsinin müdiri Həqiqət Rüstəmli Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı haqqında tədbir iştirakçılarına məlumat verib. Muzeyin əməkdaşı Biriliyand Məlikova Azərbaycan Dövlət Himninin yazılma tarixi barədə danışaraq bildirib ki, himnimiz, 1918-ci ildə Üzeyir Hacıbəyovla, Əhməd Cavadın birgə əzm və fədakarlığı sayəsində yaradılıb.

**İlhamə SEYİDOVA,**
**muzeyin elmi işçisi.**

# Payızın da öz gözəlliyi var

Yurdumuza payız fəsli gəlir. Ağacların yaşıl libası sarı-lacivərd rəngə boyanır.



Bağbanların işi bu fəsildə də çoxdur. Yetişmiş meyvələri yığmaq, ağaclara qulluq etmək lazımdır. Bağbanlar bu il meyvənin bol olduğunu söyləyirlər. Elə bizim müşahidələrimiz və bazarlar da bunu sübut edir.

Tarlalarda traktorların səsi daha da gurlaşıb. Payızlıq əkinin qaynar vaxtı yaxınlaşır. Hamı başa düşür ki, gələn ilin bol məhsulunun əsası payız aylarında qoyulur. İşləriniz uğurlu olsun.

# Taxıl səpini başlanıb

Qəbələ taxılçıları payızlıq taxıl səpininə başlayıblar. Bu günə qədər rayonda 18000 hektardan artıq sahədə şum çıxarılıb, əkinə hazır vəziyyətə gətirilib. Havaların az yağmurlu keçməsi taxıl səpini üçün əlverişli şərait yaradıb.



Bundan istifadə edən Qəbələ şəhər, Nic qəsəbə, Yenikənd və Kürd kəndlərinin fermerləri taxıl səpininə hazırlıq və səpin işlərində öndə gedirlər.

Fermerlərin əksəriyyəti səpinə toxum seçərkən əvvəlki illərdə buraxılan səhvlərə yol verməmək üçün mütəxəssislərlə sıx əlaqə saxlayırlar.

**Rais RƏŞİDOV.**

## Ölkə xəbərləri

# Ölkəyə 180 ton yüksək məhsuldarlıqlı elit toxum gətirilib

Dövlət Toxum Fondu istehsalçıların yüksək reproduksiyalı buğda toxumuna olan ehtiyaclarının müəyyən olunması məqsədi ilə təsərrüfat subyektlərinə əkin üçün tələb edilən toxum barədə sorğular göndərib.

Sorğuların cavablarına əsasən, məhsul istehsalçılarının Elit "Qrom" və Elit "Krasnodar 99" buğda sortlarına yüksək tələbatlarının olduğu müəyyən olunub.

Dövlət Toxum Fondu tələbatların ödənilməsi məqsədilə Stavropol vilayətindən 180 ton yüksək məhsuldarlıqlı Elit "Qrom" və Elit "Krasnodar 99" payızlıq yumşaq buğda toxumları gətirib. Gətirilmiş məhsul Kənd Təsərrüfatı Nazirliyinin Şəkidəki anbarına boşaldılıb.

# İlin əvvəlindən 1,09 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac olunub

Bu ilin səkkiz ayında Azərbaycandan ixrac edilən qeyri-neft məhsullarının dəyəri 1 milyard 94 milyon dollar olub. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ramil Hüseyn deyib.

Departament rəhbəri qeyd edib ki, bu müddətdə Azərbaycanın ixracı 12,9 milyard dollar təşkil edib: "Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-avqust aylarında qeyri-neft sektoru üzrə ixrac 131 milyon dollar və ya 14 faiz artıb. Cari ilin yanvar-avqust aylarında Rusiyaya 375 milyon, Türkiyəyə 249,8 milyon, İsveçrəyə 92 milyon, Gürcüstana 88,5 milyon və Çinə 32 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib. Bu dövrdə ixrac edilən qeyri-neft məhsullarının siyahısında pomidor 144,4 milyon dollarlıqla yenə də üstün olub. Avqustda isə ixrac edilən qeyri-neft məhsullarının dəyəri 125 milyon dollar çatıb".

# Muzdla çalışan işçilərin əməkhaqqı artıb

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin avqust ayının 1-i vəziyyətinə ölkədə muzdla işləyənlərin sayı 1 milyon 543,1 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 881,8 min, qeyri-dövlət neft sektorunda 661,1 min nəfər olub. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin çoxu - 23,7 faizi istehsal sahəsində çalışır. Xidmət sahəsində isə işçilərin çox hissəsini təhsil sektorunda çalışanlar təşkil edir.

Dövlət işsiz vətəndaşların sosial müdafiəsini daim diqqətdə saxlayır. Cari il sentyabr ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilən şəxslərin sayı 35,4 min nəfər olub. Onların 37,1 faizi qadınlardır. Həmin dövrdə işsizlikdən sığorta ödənişinin orta məbləği 249,9 manat olub.

Bu ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artaraq 542,3 manat təşkil edib. Əməkhaqqı neft sektorunda 3142,7, qeyri-neft sektorunda 483 manata çatıb.

## Uşaq və ailələrə dəstək mərkəzində

# Ahıl şəxslərə baş çəkilib

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi rayon əhalinin sosial müdafiəsi fondu ilə birlikdə 1 Oktyabr Beynəlxalq Ahıllar Gününə həsr olunmuş tədbir keçirib. Tədbirdə qeyd olunub ki, ahıl insanlara ölkəmizdə hər cür diqqət və qayğı göstərilir. Onların sosial-iqtisadi durumunun yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Nəcib əməlləri ilə yaşayan yeni nəsillərə nümunə olan ahılların ən böyük sərvəti həyat təcrübələridir.



Həmin gün Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin, rayon əhalinin sosial müdafiəsi fondunun əməkdaşları bir neçə tənha yaşayan ahıl şəxslərə baş çəkib, onlara ev işlərində yardım göstəriblər.

**"Qəbələ"**

# Fiziki qüsurlu uşaqlarla əlaqədar tədbir keçirilib

Qəbələ Rayon Uşaq və Ailələrə Dəstək Mərkəzi "Səlis" Psixologiya və Nitq İnkişaf Mərkəzi və Azərbaycan Uşaq Fondu birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "səlis gələcək" adlı silsiləvi social layihə əsasında növbəti tədbir keçirmişdir. Layihə çərçivəsində psixoloji və nitq qüsurlu uşaqlarla xüsusi avadanlıqlarla erkən diaqnozun qoyulması, müayinəsi, valideynlər və uşaqlar üçün xüsusi maarifləndirici proqram həyata keçirilib.



"Səlis" Psixologiya və Nitq İnkişafı Mərkəzinin direktoru Xavər Abdullayeva tədbirdə çıxış edərək bildirib ki, mərkəz artıq 11 ildir fəaliyyət göstərir. Bu müddət ərzində yüzlərlə nitq qüsurlu, psixoloji travma alan, autizm və daun sindromlu, əqli cəhətdən zəif uşaqlara lazımı dəstək göstərilib.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Günel Ağayeva və Azərbaycan Uşaq Fondu Qəbələ Rayon Şöbəsinin sədri Kamran Abışov "Səlis" Psixologiya və Nitq İnkişaf Mərkəzinin rəhbərliyinə belə vacib tədbirin Qəbələdə keçirilməsinə görə təşəkkür ediblər.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**